# Yaxın Şərq ölkələri 2018-ci ilin ilk 9 ayı ərzində Azərbaycana gəlmiş ziyarətçilərin sayına görə Rusiya və Gürcüstandan sonra üçüncü yerdə durur

2018-ci ilin ilk doqquz ayında Azərbaycana 2,2 milyon xarici ziyarətçi gəlmişdir. Bu isə 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 6,4% çoxdur. Bu dövrün statistikası ilə əlaqədar ən diqqətəlayiq fakt Yaxın Şərqdən gələn xarici səyahətçilərin sayının artmasıdır. Belə ki, Yaxın Şərq ölkələrindən Azərbaycana qeyd edilən müddətdə 310 min səyahətçinin gəlməsi regionun Rusiya (688 min) və Gürcüstandan (436 min) sonra üçüncü yer tutmasına imkan vermişdir. Yaxın Şərq ölkələrindən gələn ziyarətçilərin sayı 92 min, yaxud 42% artmışdır. Bu baxımdan Azərbaycan turizmi üçün ən vacib bazarlar BƏƏ, Səudiyyə Ərəbistanı, İraq, Küveyt və İsraildir. Bu ölkələrdən gələn səyahətçilərin sayında artım bəzi hallarda 100%-dən çox olub.

**Qrafik 1**-dən göründüyü kimi, Azərbaycana gələnlər arasında Rusiya vətəndaşları yenə də birinci yerdə durur: 2018-ci ilin ilk 9 ayında Azərbaycana səyahət edənlərin sayı 688 min olmaqla 2017-ci ilin eyni dövründən 27 min, yaxud 4% çoxdur. Gürcüstandan gələn xarici səyahətçilərin sayında isə daha böyük artım müşahidə olunur. Belə ki, Gürcüstandan Azərbaycana ümumilikdə 440 min olmaqla, keçən illə müqayisədə 40 min, yaxud 10% daha çox səyahətçi gəlmişdir.

Asiya ölkələrindən gələn səyahətçilərin sayında Yaxın Şərq ölkələrindən belə yüksək artım müşahidə olunub. 2018-ci ilin ilk 9 ayında Asiya ölkələrindən Azərbaycana səyahət etmiş insanların sayı 158 min olmaqla, 2017-ci ilin müvafiq göstəricisindən 60 min, yaxud 60% çoxdur. Ən sürətlə inkişaf edən bazarlar arasında Pakistan, Hindistan və Çini qeyd etmək olar. Bu ölkələr üzrə artım dərəcəsi müvafiq olaraq 170%, 200% və 62% təşkil edir.

Türkiyədən Azərbaycana gəlmiş səyahətçilərin sayında (220 min) 2017-ci ilin göstəricisi (222 min) ilə müqayisədə cəmi 0,9% azalma müşahidə olunub. İrandan 2018-ci ilin ilk 9 ayında Azərbaycana cəmi 203 min səyahətçi gəlib. Bu isə 2017-ci ilin analoji müddətində Azərbaycana gəlmiş 301 min səyahətçi ilə müqayisədə 33% azalma olduğunu göstərir.

**Qrafik 1: 2017 və 2018-ci ilin ilk 9 ayında 6 ölkə və regiondan gəlmiş xarici səyahətçilər (min)**



Sentyabr ayında Azərbaycana gəlmiş ziyarətçilərin ümumi sayı (231 min) 2017-ci ilin eyni dövrü (253 min) ilə müqayisədə 8,7%, yaxud 22 min az olmuşdur. **Qrafik 2** 2018-ci ilin sentyabr ayında ən yüksək göstəricilərlə seçilən altı ölkə və ya regiondan gəlmiş ziyarətçilərin sayındakı dəyişikliyi əks etdirir.

**Qrafik 2: 2017 və 2018-ci ilin sentyabr ayında 6 ölkədən/regiondan gəlmiş xarici səyahətçilər (min)**




Göründüyü kimi, İrandan gələn səyahətçilərin sayında böyük azalma müşahidə olunur. Bu tendensiya ümumilikdə 2018-ci il üçün də xarakterikdir. 2018-ci ilin sentyabrında Azərbaycana sadəcə 16 min iranlı səyahət etmişdir, nəticə etibarilə 2017-ci ilin sentyabr ayında Azərbaycana gəlmiş 52 min iranlı ilə müqayisədə 68,2% azalma baş vermişdir. Rusiya və Türkiyədən gələn ziyarətçilər arasında da müvafiq olaraq 6,8% və 4,2% olmaqla cüzi azalmalar nəzərə çarpır. Digər tərəfdən, **Qrafik 2** göstərir ki, Asiyadan gələn səyahətçilərin sayı 65% artaraq 13 mindən 22 minə çatmışdır. Ən yüksək artım Pakistan, Hindistan və Çindən gələnlər arasında müşahidə olunur. Üstəlik, Gürcüstan və Yaxın Şərqdən gələn ziyarətçilər də müvafiq olaraq 9,5% və 7,1% artmışdır. Yaxın Şərq ölkələri arasında İsraildən gələn səyahətçilərin sayında ciddi artım, regionun digər ölkələrindən gəlişlərin cüzi şəkildə azalmasına rəğmən, ümumi göstəricidə artıma səbəb olmuşdur.

**Qrafik 3 və 4** müvafiq olaraq 2017 və 2018-ci illərin yanvar - sentyabr aylarında ölkə və regionlardan gələn səyahətçilərin payını əks etdirir. Gürcüstan istisna olmaqla, Rusiya, İran və Türkiyə kimi iri turizm bazarlarından Azərbaycana gələn ziyarətçilər arasında azalma müşahidə edilir. Bu, xüsusilə də bazar payı 15%-dən 9%-ə düşmüş İran üçün doğrudur. Rusiya və Türkiyə bazar payının sadəcə 1%-ni itirsə də, Gürcüstanın bazar payı 1% artıb. Rusiya və Gürcüstan Azərbaycana gələn səyahətçilərin reytinqində lider mövqeyini saxlamaqdadır.

Yaxın Şərq ölkələri qısa müddətdə bu reytinqdə beşinci yerdən üçüncü yerə yüksələrək bazar payını 11%-dən 14%-ə çatdırmışdır. Asiya ölkələrinin payı 5%-dən 7%-ə qədər artmışdır.

**Qrafik 3: 2017-ci ilin yanvar - sentyabr aylarında 6 ölkə və regionun bazar payı (%)**




**Qrafik 4: 2018-ci ilin yanvar - sentyabr aylarında 6 ölkə və regionun bazar payı (%)**




**Metodoloji qeyd:** Xarici səyahətçilərin sayı Dövlət Miqrasiya Xidməti tərəfindən verilən məlumata əsasən, Azərbaycanın dövlət sərhədini keçmiş xarici vətəndaşların sayına müvafiq olaraq hesablanıb. Bu rəqəmlər turizm məqsədilə səfər edən şəxslərlə yanaşı, 2008-ci ilin Turizm Statistikası üçün Beynəlxalq Tövsiyələrinə uyğun olaraq, bu kateqoriyaya aid edilməyən digər səyahətçiləri, misal üçün, sərhəd işçiləri, uzunmüddətli işçilər və tələbələr, pasiyentləri və s. əhatə edir. Nəticə etibarilə, gəlmə turizm axını bu hesabatda qeyd edilmiş səyahətçilərin sayından bir qədər azdır.

Cədvəl 1: 2018-ci ilin sentyabr ayında və 2018-ci ilin yanvar - sentyabr aylarında müxtəlif ölkə və regionlardan gələn xarici vətəndaşların sayı, habelə 2017-ci ilin müvafiq dövrləri üçün analoji rəqəmlər.

| Region | 2018-ci il | | 2017-ci il | |
|---|---|---|---|---|
| | Sentyabr | Yanvar – sentyabr | Sentyabr | Yanvar – sentyabr |
| Rusiya | 65 633 | 688 163 | 68 521 | 661 349 |
| Gürcüstan | 51 703 | 436 361 | 47 231 | 397 038 |
| İran | 16 483 | 202 505 | 51 784 | 301 012 |
| Türkiyə | 26 475 | 220 232 | 28 401 | 222 258 |
| Yaxın Şərq | 24 948 | 309 443 | 23 294 | 217 947 |
| Asiya | 21 846 | 158 000 | 13 236 | 99 081 |
| Şərqi Avropa | 9 830 | 76 735 | 9 282 | 74 627 |
| Qərbi Avropa | 9 643 | 75 928 | 8 457 | 69 933 |
| Amerika | 2 905 | 21 081 | 2 129 | 16 762 |
| Qalan ölkələr | 1 016 | 6 791 | 780 | 6 811 |
| Afrika | 1 009 | 8 893 | 545 | 5 100 |
| **CƏMİ** | **231 491** | **2 204 132** | **253 660** | **2 071 918** |